# Liz Trass Böyük Britaniyanın Baş naziri vəzifəsinə təyin olundu

Dünən Kraliça II Elizabet Liz Trassı Böyük Britaniyanın Baş naziri vəzifəsinə təyin edib. O, ənənəyə uyğun olaraq yeni hökumət başçısına Nazirlər Kabinetini formalaşdırmağı tapşırıb. Xüsusi mərasim Şotlandiyada, Aberdin yaxınlığındakı Balmoral qəsrində keçirilib.





Beləliklə, Liz Trass II Elizabetin təyin etdiyi 15-ci Baş nazir olub.

Bundan yarım saat əvvəl isə Kraliça keçmiş hökumət başçısı Boris Consonun istefasını qəbul edib.

Xatırladaq ki, bir neçə gün öncə Mühafizəkarlar Partiyasının yeni lideri və müvafiq olaraq Britaniya hökumətinin rəhbəri vəzifəsinə ölkənin sabiq xarici işlər naziri Liz Trass seçilib. Trassın namizədliyini mühafizəkarların əksəriyyəti dəstəkləyib. Səsvermə iyulun sonundan poçt vasitəsilə aparılıb.

Onun əsas rəqibi iyulun 5-dək Maliyyə Nazirliyinin kansleri postunu tutan Rişi Sunak olub. İlkin olaraq 12 mühafizəkar partiya sədri vəzifəsinə namizədliyini irəli sürüb.

O, evlidir və iki övladı var. Liz Trass ötən il sentyabrın 15-dən Böyük Britaniyanın xarici işlər naziri vəzifəsində çalışıb. O, Böyük Britaniya tarixində Marqaret Tetçer və Tereza Meydən sonra üçüncü qadın Baş nazirdir.

Qeyd edək ki, Liz Trass Mühafizəkarların lideri seçildikdən sonra mətbuat konfransında "mən vergiləri azaltmaq və Britaniya iqtisadiyyatını inkişaf etdirmək üçün cəsarətli bir plan təqdim edəcəyəm" deyə vəd verib. O, Mühafizəkarlar Partiyasına rəhbərlik etməkdən qürur duyduğunu bildirib və yarışdakı əsas rəqibi, keçmiş maliyyə naziri Rişi Sunaka təşəkkür edib. Britaniya Mühafizəkarlarının lideri işinə görə həmçinin sələfi Boris Consona təşəkkür edib və onu dostu adlandırıb.

Trass bildirib ki, Mühafizəkarlar Partiyası onun rəhbərliyi altında növbəti iki il ərzində seçicilərə verdiyi vədləri yerinə yetirmək niyyətindədir.

Dünən axşam Liz Trass hökumət başçısı iqamətgahı qarşısında ilk dəfə çıxış edib. O bildirib ki, Britaniya ictimaiyyəti dəfələrlə cəsarət və qətiyyət nümayiş etdirib, hazırda isə Ukrayna müharibəsinin, habelə COVID virusunun yaratdığı qlobal problemlərlə üzləşir.

Liz Trass bildirib ki, vergilərin azaldılması və islahatlar yolu ilə iqtisadiyyatı inkişaf etdirmək üçün cəsarətli planı var. O, Böyük Britaniyanın işləməsi, qurulması və böyüməsi üçün öz missiyasında islahatlar aparacağını da əlavə edib.

Artan enerji fakturalarına gəldikdə, Trass təkcə hesablarla deyil, həm də uzunmüddətli enerji təminatı məsələləri ilə də məşğul olacağını söyləyib.

Liz Trassın Nazirlər Kabinetində təyinatlar həyata keçirəcəyi bildirilir. Yeni Baş nazir öz kabinetində əsas nazirliklərin başçıları postuna namizədləri faktiki olaraq müəyyənləşdirib. Hazırkı sahibkarlıq, energetika və sənaye strategiyası naziri Kvazi Kvartenqin maliyyə naziri vəzifəsinə təyin ediləcəyi, Baş prokuror Suella Breyvermanın daxili işlər naziri olacağı, xarici işlər naziri vəzifəsini isə təhsil naziri Ceyms Kleverlinin tutacağı gözlənilir.

Yeni kabinetin tərkibinə indiki daxili işlər naziri Priti Patel və mədəniyyət naziri Nadin Dorris daxil olmayacaqlar - onlar artıq istefa vermək istədiklərini açıqlayıblar.

Mühafizəkarlar Partiyasının əksər üzvlərinin səs verdiyi Liz Trassın qələbəsi Boris Consonun çoxsaylı sosial və siyasi təlatümlərlə müşayiət olunan üçillik hakimiyyətinə son qoydu.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

Azərbaycan.- 2022.- 7 sentyabr.- S.8.